**Azərbaycan Respublikası**
**Xarici İşlər Nazirliyi**

*Haraya:* **Təmimi**
*Göndərilmə nömrəsi:* **S/16-3899/16/17** *Tarix:* **16.02.2017**
*Sənəd necə göndərilir:* **Elektron poçt**
*Səhifələrin sayı:*______ **Əlavə olunur** _____
*Məhdudlugu qrifi:* **Adi**
*Təciliiyi:* **Təcili**
*Vacibliyi:* **Vacib**

"Konsulluq hesabatlarının təqdim edilməsinə dair"

Hörmətli diplomatik nümayəndəlik və konsulluqların rəhbərləri,

Diqqətinizə çatdırırıq ki, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin s/16-32150/16/16 saylı 22.12.2016-cı il tarixli məktubunda konsulluq rüsumları üzrə hesabatların tərtibi zamanı "Azərbaycan Respublikasının diplomatik nümayəndəlikləri və konsulluqları tərəfindən konsulluq hesabatlarının tərtibi Qaydaları" tələblərinin nəzərə alınması və müəyyən olunmuş vaxtda təqdim olunması barədə ətraflı məlumat verilmişdir.

Lakin buna baxmayaraq, Azərbaycan Respublikasının Meksika və Serbiyadakı səfirlikləri və Los-Anceles, Qars və Təbriz şəhərlərindəki Baş konsulluqları tərəfindən 2017-ci ilin yanvar ayı üzrə konsulluq hesabatları bu günə kimi XİN-ə təqdim edilməmişdir.

Eyni zamanda, XİN-in s/16-1705/16/17 saylı 24.01.2017-ci il tarixli məktubu ilə məlumat verilməsinə baxmayaraq, Azərbaycan Respublikasının Mərakeş və Qırğız Respublikasındakı səfirlikləri tərəfindən 2016-cı ilin sonuna konsulluq rüsumu üzrə qalıq, həmçinin Meksikadakı səfirlik tərəfindən 2017-ci ilin yanvar ayı üzrə toplanmış konsulluq rüsumu bu günə kimi dövlət büdcəsinə köçürülməmişdir.

Qeyd olunanları nəzərə alaraq, konsulluq hesabatlarının vaxtında təqdim edilməsi və konsulluq əməliyyatları üçün alınan dövlət rüsumunun "Dövlət rüsumu haqqında" Qanunun tələblərinə və Xarici İşlər Nazirliyinin təlimatlarına uyğun olaraq dövlət büdcəsinə köçürülməsi üçün müvafiq göstəriş verməyinizi xahiş edirik.

Hörmətlə,

MMVİ-nin rəisi — Lamiyə Canəhmədova

MMVİ-nin şöbə müdiri — Ramil Ağazadə

İcraçı:
MMVİ-nin aparıcı məsləhətçisi — Etibar Quliyev
16.02.2017-ci il.